

ABŞ dövlət katibi Con Kerri İranın nüvə problemi üzrə "altılıq" və İran arasındakı danışıqlara qatılmaq üçün Cenevrəyə gedib.

Artıq Fransa, Almaniya, Britaniya xarici işlər nazirləri Loran Fabius, Gido Vestervelle, Uilyam Heyq, eləcə də Avropa Birliyinin xarici işlər və təhlükəsizlik üzrə ali komissarı Ketrin Eşton Cenevrədədir.

C. Kerri İran xarici işlər naziri Cavad Zəriflə ikitərəfli görüş keçirmək fikrindədir.

Qeyd edək ki, "altılıq" ölkələri ilə İran arasında ekspertlər səviyyəsində danışıqlar BMT-nin Cenevrədəki Millətlər Sarayında keçirilir. İran tərəfini xarici işlər nazirinin müavini Abbas Əraqçı təmsil edir.